# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Yanvarın 23-də Təhsil naziri Ceyhun Bayramov Salyan şəhərindəki Heydər Əliyev Mərkəzində Hacıqabul, Salyan rayon və Şirvan şəhər sakinlərini qəbul edib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2020-ci ilin yanvar ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, həyata keçirilən qəbulda qeyd edilən şəhər və rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Qəbulda C.Bayramov vətəndaşların müraciət və təkliflərini diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin yerdəyişməsi, işlə təminolunma, məktəb binalarının əsaslı təmir və tikintisi, dərs saatlarının bölgüsü və digər məsələlərlə bağlı müraciət ediblər.

* * *

Yanvarın 23-də “Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov Siyəzəndə vətəndaşları qəbul edib.

ASC-nin mətbuat xidmətindən bildirilib ki, qəbulda Siyəzən və Xızı rayonlarından olan vətəndaşlar iştirak ediblər. Əhalinin müraciətlərini dinləyən V.Əhmədov bütün məsələlərin qanunvericiliyə uyğun və operativ şəkildə həll edilməsi üçün ASC-nin əlaqədar struktur qurumlarının rəhbərlərinə və rayon elektrik şəbəkələrinin rəislərinə müvafiq göstərişlər verib. Vətəndaşların müraciətlərinin əksəriyyəti yerindəcə həllini tapıb. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və operativ həlli üçün icraya yönəldilib. Qurumun fəaliyyət istiqamətlərinə aid olmayan müraciətlər isə qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib.

* * *

Mədəniyyət nazirinin müavini Rafiq Bayramov Xırdalan şəhərində Abşeron və Zəngilan rayonlarından olan vətəndaşlarla görüşüb.

Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbulda vətəndaşlar tərəfindən Xırdalan şəhər 11 illik Musiqi Məktəbinin incəsənət məktəbinə çevrilməsi, uşaq musiqi və incəsənət məktəblərinin şagirdləri üçün klassik musiqi konsertlərinin təşkili, Zəngilan rayon Mərkəzi Kitabxanasına Azərbaycan və dünya ədəbiyyatı, eləcə də ali məktəb dərsliklərinin verilməsi diqqətə çatdırılıb.

Həmçinin Zəngilan Rayon Tarix-Diyarşünaslıq Muzeyinə sensor vitrinlərin verilməsi, Zəngilan kənd klubunun ərazisində açıq səhnənin qurulması, Saray qəsəbəsində mədəniyyət evinin tikilməsi, işlə təmin olunma və digər məsələlərlə bağlı nazir müavininə müraciət edilib.

Vətəndaşlar tərəfindən səsləndirilən bütün müraciətlər dinlənilib, qaldırılan bir sıra məsələlər yerində həllini tapıb. Bəzi müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həll olunması məqsədilə müvafiq tapşırıqlar verilib.

***AZƏRTAC***

Azərbaycan.- 2020.- 24 yanvar.- S. 3.